***Hüseyn Kürdoğlu***
***Neçə il ağlar***

Məğrur İşıqlının zirvələrində,
Məndən küsüb gedən bir könül ağlar.
Qoşular ot basan həzin bulağa,
Baxar el yoluna, hey dil-dil ağlar.

Ocaq daşlarından qalxar nalələr,
Yanıb ləçək tökər qızıl lalələr.
Qayalar döşündə ağ şəlalələr
Gündüz bəmdə dinər, gecə zil ağlar.

Laçın ad almışdı mərdanəlikdə,
Ellər ocağına pərvanəlikdə.
İndi o dəhşətli viranəlikdə
Baxar bayquşlara, qızılgül ağlar.

Hanı bu dağların xoşbəxt elləri,
Qanlı göz yaşıtək axır selləri.
Qırxqızın, Murovun çənli belləri
Qeyzindən başına tökər kül, ağlar.

Məgər mehvərindən çıxdı kainat,
Dönməzmi dağlara əzəlki həyat?!
Dağ oldu köksündə yolları qat-qat,
Neçə il ağlamış, neçə il ağlar?!

Tarixin alnından getməz bu ləkə,
Xəyanət toruna düşdü bir ölkə.
Xəzər sahilində ah çəkə-çəkə,
Qoca Kürdoğlutək bir zəlil ağlar.

***Kürdoğlu H. Neçə il ağlar // Yurduma qurbandır sözüm. – Bakı: Sabah, 2005. – S. 39-40.***